

**İsmayılzadə Müşfiq Xanlar oğlu**

Müşfiq Xanlar oğlu İsmayılzadə 1994-cü il oktyabrın 16-da Tovuz rayonunun Alakol kəndində anadan olub. 2001-2005-ci illərdə Tovuz rayonunda Alakol kənd tam orta məktəbində, 2005-2009-cu illərdə isə Gəncə şəhərində İ. Nəsimi adına 44 nömrəli tam orta məktəbdə təhsil alıb. Müşfiq İsmayılzadə 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 7 sentyabr 2020-ci ildən müddətdən artıq hərbi qulluqçu kimi xüsusi hazırlanmış dəstədə xidmətə başlayıb.

Azərbaycan Ordusunun əsgəri olan Müşfiq İsmayılzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Müşfiq İsmayılzadə Murovdağ döyüşləri zamanı şəhid olub. 19 dekabr 2020-ci il tarixdə Tovuz rayonunun Alakol kəndində dəfn olunub.